# Qaxda Xocalı soyqırımı qurbanları ehtiramla anıldı

Tariximizin ən qanlı və dəhşətli səhifələrindən olan Xocalı faciəsindən 28 il keçir. İllər ötsə də, Azərbaycan xalqı bu faciəni və onun qurbanlarını unudan deyil. Xalqımıza, millətimizə qarşı işlədilən bu cinayət - Xocalı soyqırımı bir daha erməni vandalizminin əsl üzünü göstərdi. Torpaqlarımız hesabına "böyük Ermənistan" yaratmaq sevdasına düşən ermənilər 1992-ci il fevralın 26-da Xocalıda sovet ordusunun 366-cı motoatıcı alayının və muzdlu quldurların köməyi ilə bəşər tarixində misli görünməyən bir cinayət törətdilər.

Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı rayonumuzda silsilə tədbirlər keçirildi. Təhsil, mədəniyyət müəssisələrində, idarə və təşkilatlarda keçirilən hər bir tədbirdə Xocalı faciəsinin, soyqırımının qurbanları ehtiramla anıldı.

Qax Gənclərin İnkişaf və Karyera Mərkəzinin könüllüləri Xocalıda qəddarlıqla qətlə yetirilən 63 uşağın xatirəsini əbədiləşdirmək məqsədilə Şəhidlər xiyabanında 63 həmişəyaşıl sərv ağacı əkərək soyqırımına məruz qalan Xocalı uşaqlarına həmişəyaşarlıq haqqı verdilər.

Heydər Əliyev Mərkəzində rayonun gənc rəssamlarının və Qax Gənclərin İnkişaf və Karyera Mərkəzinin könüllülərinin "Xocalı harayı" mövzusunda çəkdikləri rəsmlərdən ibarət sərgi nümayiş etdirildi.

Rayon Gənclər və İdman idarəsinin Təhsil şöbəsi ilə birgə keçirdiyi 9-10 yaşlı məktəblilər arasında "Xəmsə" intellektual bilik yarışı da Xocalı faciəsinə həsr olunmuşdu. Bu yarışda 16 komanda mübarizə apardı.

Rayonun təhsil və təhsildən kənar müəssisələrində müxtəlif tədbirlər - rəsm, şeir və inşa yazı müsabiqələri, disputlar, "dəyirmi masa"lar, konfranslar, ədəbi-bədii kompozisiyalar keçirilmişdir. Bu tədbirlərin iştirakçıları hamılıqla Xocalıya ədalət səsini ucaltmışlar.

Hər il olduğu kimi, yenə də rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev bir qrup ictimaiyyət nümayəndəsi ilə birlikdə rayonumuzda məskunlaşan, yaşı 80-ni haqlayan Xocalı sakini Məmməd Abbasovun ailəsində olmuş, ailəyə maddi və mənəvi dəstək vermişdir.

Köksü Xocalı dağlı, qəlbi vətən həsrətli Məmməd kişi xocalılılara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Gələn qonaqlardan razılıq etdi. M.Abbasov onu da qeyd etdi ki, ən böyük arzusu bu dünyadan köçməmiş bir də Xocalını görməkdir. Dövlət başçısının xarici və daxili siyasətinin məhz torpaqlarımızın azad edilməsinə yönəldiyini söyləyən Məmməd kişi arzusuna çatacağına da əmindir.

Fevralın 26-da rayon sakinləri, rəhbər işçilər şəhərimizdəki Şəhidlər xiyabanında ucaldılan "Ana" abidəsinin önünə və şəhid məzarlarına qərənfillər düzərək Xocalı qurbanlarının ruhuna dualar oxumuş, xatirələrini ehtiramla yad etmişlər.

Ümumrayon tədbirləri elmi-praktik konfransla davam etdirildi. Çıxış edənlər vurğuladılar ki, Xocalı faciəsi düşünülmüş, əvvəlcədən planlaşdırılan bir qətliam idi.

Təəssüf ki, o zamanlar Azərbaycana rəhbərlik edənlər Xocalı həqiqətlərini dünya ictimaiyyətindən gizlətməyə çalışdılar. Yalnız Ulu Öndər Heydər Əliyevin təkid və təşəbbüsü ilə Xocalı həqiqətləri beynəlxalq aləmə çatdırıldı.

Tədbirdə Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanın haqq səsini dünyaya bəyan etdirmək üçün gördükləri işlərdən danışıldı. Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulandı, fondun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya ədalət!" kampaniyasının əhəmiyyətindən söz açıldı.

Elmi-praktik konfrans mədəniyyət işçilərinin hazırladıqları ədəbi-bədii kompozisiya ilə başa çatdı.

***Xavər ƏFƏNDİYEVA,***
***Qax rayonunda çıxan "Şəlalə" qəzetinin redaktor əvəzi***